# Eybəcərlik dünyanı məhv edəcək

## (Dostoyevskinin “Şeytanlar” romanı barədə)



Məmməd Qocayev
*Professor*

Əgər “İdiot” romanının əsas qayəsi gözəlliyin dünyanı xilas edəcəyinə olan inam idisə, “Şeytanlar”ın əsas ideyası eybəcərliyin dünyanı məhv edə biləcəyi qorxusudur. “Şeytanlar” romanı Dostoyevskinin bədii cəhətdən ən güclü, ideya sarıdan ən mürəkkəb və ziddiyyətli romanlarından biridir. Bu roman sovet dövründə mürtəce əsər damğası vurularaq, tədqiqatdan və tədrisdən kənarda qoyulmuşdu. Dostoyevskinin romanları içərisində “Şeytanlar” daha çox xarakterlər romanı adlandırıla bilər. Burada son dərəcə koloritli, yaddaqalan və bənzərsiz xarakterlər sistemi vardır. Hər bir personaj təkrarolunmaz bir xarakterə malikdir: Stepan Verxovenski, Varvara Petrovna Stavrogina, Nikolay Stavrogin, Pyotr Verxovenski, Kirillov, Şatov, Marya Lebyadkina, Liza Tuşina, Daşa Şatova və s. Bunların hər biri haqqında bir traktat yazmaq olar. Onlardan hər biri insan deyilən məxluqun dərin və geniş mahiyyətinin hansısa bir tərəfini özündə ehtiva edir.

Stepan Trofimoviç Verxovenski əsərin, demək olar ki, bütün gənc qəhrəmanlarının hamısının müəllimi və mənəvi atasıdır. Qəhrəmanların hamısı ondan nəyisə əxz etmişdir, onun təlimi və ümumiyyətlə, həyat fəlsəfəsi gənc nəslin nümayəndələrinin qəlbində və şüurunda müəyyən iz buraxmışdır. Stepan Trofimoviçin mənəviyyatlı, ziyalı, yüksək estetik zövqə malik, romantik ideyalar və romantik ideallar təbliğatçısı olmasını nəzərə alsaq, bu təsirin nəticələrinin bu qədər ziddiyyətli və paradoksal olması böyük maraq doğurur. Nədən romantik ideallar carçısı olan bir həyat fəlsəfəsi bu qədər mənfi nəticələrə gətirib çıxarmışdır?

Birincisi, Stepan Trofimoviç XIX əsrin 40-cı illər nəslinə mənsub olan ziyalıdır və Belinski, Qranovski, Gertsenin mənsub olduğu cərəyanı təmsil edir. Onun dünyagörüşünün əsasında və mayasında iki ideya, iki prinsip durur: onlardan biri romantizm (ədəbi cərəyan mənasında deyil, həyat fəlsəfəsi, yəni idealizm mənasında), digəri isə qərbçilikdir. Bunların hər ikisi - həm romantizm, həm də qərbçilik 40-cı illər rus mədəni həyatında geniş yayılmış mütərəqqi cərəyanlar hesab edilirdi. Belinski demokratizmi və onun tarix fəlsəfəsi, ədəbi tənqidi məhz bu ideyalardan qidalanırdı. Sovet dövrü ədəbiyyatşünaslığı bu təmayülü göylərə qaldırmış və Belinskini rus demokratik hərəkatının atası kimi qəbul etmişdir. Sovet elmində Belinskinin ideyalarına qarşı nəinki mənfi, hətta yüngülvari tənqidi fikir belə söylənilməmişdi. İndi isə, əksinə, demokratizm, xüsusilə də inqilabi demokratizm müasir ədəbiyyatşünaslar tərəfindən mürtəce və səhv bir cərəyan kimi qiymətləndirilir ki, bunun da əsasında dərin elmi, tarixi baxış deyil, çılpaq bir inkarçılıq dayanır. Niyə Belinski sovet dövründə yüksək qiymətləndirilirdi, indi isə o, inkar edilir? Ona görə ki, hər iki halda tarixə konyukturadan çıxış edərək yanaşılır. Biz də Belinskinin səhvlərini qeyd edirik, amma konyuktura naminə deyil, onun fikirlərinə obyektiv yanaşaraq bu tənqidi fikirləri söyləyirik. Hər şeydən əvvəl Belinski Qoqolun son dövr yaradıcılığını və onun dünyagörüşündəki dönüşü dəyərləndirə bilmədi. Elə bu səbəbdən də Dostoyevskinin “Oxşar” əsərini tənqid etdi. Dostoyevski özünün “Şeytanlar” romanında Stepan Trofimoviçin obrazı və xarakteri vasitəsilə bütün bu məsələlərə aydınlıq gətirir və 40-cı illərin romantik və demokratik təmayüllərinin nə dərəcədə ziddiyyətli təmayüllər olduğunu açıqlayır.

İkincisi, Stepan Trofimoviçin romantizmi barədə. Axı romantizmin nəyi pisdir? Stepan Trofimoviçin gözəllik pərəstişkarı, ədəbiyyat və sənət pərəstişkarı olmasının nəyi pisdir? O, Puşkinə, Şekspirə, Rafael Santiyə, onun “Sikst Madonnası”na pərəstiş edir və demokratların “çəkmə Şekspirdən üstündür”, yəni maddi nemətlər, praqmatik fəaliyyət mənəvi dəyərdən, estetik fəaliyyətdən gərəklidir ideyasının




əleyhinə çıxır və gözəlliyi praqmatika qarşısında müdafiə edir. O, deyir ki, bəşəriyyət Fransa, Rusiya və s. olmadan da yaşaya bilər, amma gözəlliksiz yaşaya bilməz. Bəs onda nə səbəbdən Dostoyevski bu qəhrəmanı oxucuya komik planda təqdim edir? O səbəbdən ki, Pyotr Stepanoviçin görüşləri, nə qədər cazibədar, gözəl olsa da, rus milli ruhuna, rus milli zəmininə, ümumiyyətlə, heç bir zəminə söykənmir və mücərrəd bir nəzəriyyə və dünyagörüş kimi havadan asılı qalır. Dostoyevski hesab edir ki, bu cür romantik, ali, mücərrəd nəzəriyyələr və bu cür tərbiyə sistemi gənc nəsli real həyatdan ayırır, onu gərəksiz, hətta zərərli bir qüvvəyə çevirir. Bunun bariz nəticəsi və nümunəsi Stepan Trofimoviçin bir tərbiyəçi olaraq yetirdiyi Nikolay Stavrogindir. Real həyatla, gerçəkliklə toqquşanda Stepan Trofimoviçin ideyaları öz əksinə çevrilir və məşum nəticələrə, dəhşətli cinayətlərə gətirib çıxarır. Səbəb də ondadır ki, yüksək ideallarla qidalanan qəlb real həyatda bu qidanı tapa bilmir. İnsan səmada uçmaqdan bezir, yerlərə enir və yerdə öz səmavi idealının nəinki özünü, heç onun oxşarını da tapa bilmir. İnsan isə tez-gec göylərdən hökmən yerə enir, ecazkar röyalardan ayılır və bu oyanış onunçün dəhşətli olur. Bax elə ona görə də Dostoyevski romantizmi (heç bir şəkildə - nə ədəbi cərəyan kimi, nə də həyat fəlsəfəsi kimi) təqdir etmir və özünün romantizmə olan mənfi münasibətini əvvəlcə “Gizlindən qeydlər” əsərində, sonra da daha dolğun şəkildə “Şeytanlar” romanında ifadə edir.

Stepan Trofimoviçin ziddiyyətlərinin ikinci səbəbi onun öz dünyagörüşü etibarı ilə qərbçi olmasıdır. Dostoyevski qərbçiliyin qatı düşməni olmuş və rus qərbçilərini, ta ki Birinci Pyotrdan tutmuş Belinski və Çernışevskiyə qədər hamısını tənqid etmişdir. Qərbçilik ideyasının və qərbçilik fəaliyyətinin bariz nümunəsi kimi Dostoyevski Peterburqu götürür və onu dünyada ən yad, ən mücərrəd, ən fantastik şəhər hesab edir. Peterburq rus milli ruhunun ifadəsi deyil, əksinə, ona tamamilə yad olan özgə bir ruhun, Qərb ruhunun törəməsidir. Eyni hadisə - yəni Avropaya, Qərb mədəniyyətinə tapınaraq milli kökdən ayrılma - ədəbiyyatda da baş verir və bunun da nəticəsi olaraq “Əsrimizin qəhrəmanı”, yəni Peçorin kimi “artıq insanlar” deyilən qəhrəmanlar silsiləsi yaranır. Dostoyevski özünün qərbçiliyə münasibətini həm Stepan Trofimoviçin, həm də yazıçı Karmazinovun (bu, Turgenevə parodiyadır) yaradıcılığına olan münasibəti vasitəsilə ifadə edir. Qərbçiliyin ən dəhşətli nəticələri özünü təkcə ədəbiyyatda və mədəniyyətdə deyil, həyatda və ictimai fəaliyyətdə də göstərir. Stepan Trofimoviçin doğma oğlu Pyotr (Dostoyevskinin Pyotr adlı bir nəfər də olsun müsbət qəhrəmanı yoxdur) Verxovenski 70-ci illərin anarxisti kimi təqdim olunur. Yəni bu məşum xadim romantik qərbçi Pyotr Stepanoviçin törəməsidir. 40-cı illərin demokratizmi, demokratik ideyaları 70-ci illərin anarxizmini yaratdı, onun sələfi oldu. Yəni 70-ci illərin şeytanlarını 40-cı illərin romantikləri yetişdirdilər.

Stepan Trofimoviç Don Kixot qədər komik və onun qədər də faciəvi bir xarakterdir. O, özünün istedadını heç bir sahədə həyata keçirə bilmədi və onun bütün o gözəl, ali ideyaları həyatda öz əksinə çevrildi. Bundan da böyük faciə ola bilərmi - insanın məziyyətləri onun qəbahətlərinə çevrilsin? Ona görə də Stepan Trofimoviç urvatsız və acınacaqlı bir aqibət yaşadı, varlı xanım, general arvadı Varvara Petrovna bu oyuncaqla daim öz ürəyində fəxr edirdi, onsuz yaşaya bilmirdi. Onu evdən qovsa da, bu hikkəli qadın Stepan Petroviçi ölüm ayağında axtarıb tapır və ləyaqətlə dəfn edir. Stepan Trofimoviç isə əyalətdə, şəhərdən uzaq bir kənddə vəfat edir. Amma vəfat etməzdən əvvəl o kəndə, rus torpağına, rus xalqına sarı üz tutur, təkcə onun daxmasında yaşayıb onun çörəyini yemir, həm də onun idealına, onun inamına, onun ruhuna tapınır. O, bir növ ata evinə, doğma zəminə qayıdır, amma əfsuslar olsun ki, yaşamaq və yaratmaq üçün deyil, ölmək üçün qayıdır. Onun ruhi oyanışı həm də onun ölümü ilə bitir. Bu obraz vasitəsilə Dostoyevski rus ziyalılarını, rus xadimlərini, rus mütəfəkkirlərini doğma zəminə və doğma imana çağırır. Yad ideyalar vasitəsilə nəyisə əldə etmək olar, amma burada öz milli ruhundan, öz doğma torpağından gələn çox şeyləri, bir çox dəyərləri qurban verməlisən. Ən qorxulusu da odur ki, bu yolda xalq da, millət də, şəxsiyyət də özünə yad ola bilər. Daxili yadlaşma isə milliliyin itirilməsinə və millətin məhvinə gətirib çıxara bilər. Dostoyevski Rusiya üçün bu xəbərdarlığı edirdi. Maraqlıdır ki, əsərin əvvəlində verilmiş və İncildən gətirilmiş şeytanlar barəsindəki sözləri Stepan Trofimoviç əsərin sonunda, artıq zəminə tapınandan sonra, bir də oxuyur və şərh edərək deyir ki, İncildə təsvir olunan şeytanlardan azad olaraq sağalan və İsanın ayaqları altında sapsağlam halda oturan o xəstə Rusiyanın özüdür, şeytanlar isə Pyotr Verxovenski və onun silahdaşlarıdır. Rusiya onlardan qurtulacaq, İsanın dərgahına qayıdacaq və onda xoşbəxt və azad olacaq.

### STAVROGİN PARADOKSU

Dostoyevskinin qəhrəmanları içərisində ən ziddiyyətlisi, ən paradoksalisti Stavrogindir. O, əsl Dostoyevski qəhrəmanıdır. Onu nə sevmək mümkündür, nə də ondan ayrılmaq. Bu, əsl iblisanə bir şəxsiyyətdir. Bir tərəfdən, zahirən çox gözəl, fiziki cəhətdən çox qüvvətli, son dərəcə mətin və iradəli, qorxu nə olduğunu bilməyən bir şəxsiyyətdir. Digər tərəfdən, onun zahiri gözəlliyində bir soyuqluq, maskanı andıran bir cansızlıq, mistik və iblisanə bir yadlıq vardır. Bu adama canlı insani duyğular tamamilə yaddır. O, soyuq, etinasız bir dərrakənin ağuşundadır. Bu soyuq idrak Stavrogini hər şeyə yad, hər şeyə biganə bir vəziyyətə gətirmişdir. İdrak ondakı canlı həyatı, canlı duyğuları: məhəbbəti də, nifrəti də, mənəviyyatı da, mərhəməti də - hər şeyi məhv etmişdir. Bu insan, mənə elə gəlir ki, dünyada heç kəsi və heç nəyi sevmir. Sən demə, dünyada belə adamlar varmış və kifayət qədər çoxmuş. Heç kəsi sevməmək, hətta özünə, öz həyatına qarşı biganə olmaq - bu, insanın naqisliyi qədər də onun gücüdür. Təəccüblü də olsa, heç kəsi, heç nəyi sevməyən adamlar güclü olurlar. Sevmək, ümumiyyətlə, zəiflikdir. Bəlkə də napoleonların, stalinlərin, sezarların gücü onların heç kəsi sevməməsindədir. Bu adamlar qədim yunan allahlarına bənzəyirlər. Ümumiyyətlə, deyəsən, Allah insanları sevmir, amma onlara nifrət də etmir, sadəcə olaraq öz xilqəti kimi onunla fəxr edir. Ümumiyyətlə fəxr edir, heç kəsi xüsusi olaraq seçmədən fəxr edir. Sözsüz ki, yalnız özünün sevimli peyğəmbərlərindən savayı. Allahın öz xilqətinə olan münasibəti insani münasibətlərdən onunla fərqlənir ki, burada akseoloji məqam, yəni dəyərləndirmə məqamı yoxdur. Allah qızılquşun əlindən qaçıb qurtarmaq istəyən göyərçinə də, onu tutub qanını tökmək istəyən qızılquşa da eyni münasibət bəsləyir. Onların hər ikisi öz əməllərində eyni dərəcədə haqlıdırlar - qaçıb qurtulmaq istəyən göyərçin də, tutub parçalamaq istəyən qızılquş da.

Mövzuya qayıdaq. Gözəl, güclü, qorxunun nə olduğunu bilməyən, qəlbində nə məhəbbət, nə nifrət, nə mərhəmət olan Stavrogin - Stepan Trofimoviçin əziz şagirdi, romantik və sentimentalist əhvallı yeniyetmə nədən bu cür metamorfozaya məruz qaldı və nədən iblis onun varlığına hakim kəsildi. O, öz ali duyğularını bir anın içindəcə nə səbəbdən tamamilə itirdi? Gözəl tərbiyə görmüş bu aristokrat, parlaq gələcəyi olan qvardiya zabiti birdən-birə cinayətlərə, qanun pozuntularına, duellərə meyl edir, rütbəsi aşağı salınaraq piyada alayına göndərilir, Polşa inqilabının yatırılmasında fərqlənərək yenidən zabit rütbəsində bərpa olunur, amma gözlənilmədən istefaya çıxır, Peterburqun xarabazarlarında veyillənən tör-töküntülərlə dostlaşır, onların çirkli mənzillərinə gedir, onlarla içki içir, düşkünləşir və bütün bunlar onun xoşuna gəlir. Burada xoşa gələn və aristokrat Stavrogini bu xarabazarlara cəlb edən nədir? Çox təəccüblü də olsa həyatdır! Bu sualın cavabı budur. Həyat! Stavroginin ali, romantik dünyasında da, sonralar universiteti bitirib orduda xidmət edərkən dolaşdığı o kübar mühitində də o, həyatı, yaşamağı duymur, sanki yuxudaymış kimi şövqsüz, məqsədsiz, kədərsiz və sevincsiz dolaşırdı. Xarabazar həyatı onu öz iyrəncliyi və eybəcərliyilə özünə cəlb edirdi. O, eybəcərliyi sevmirdi, eybəcərliyin onun qəlbində yaratdığı ikrah hissini, bir də özünün mənəvi düşkünlüyünü anlayaraq keçirdiyi daxili işgəncələr onu cəlb edirdi. Burda cəlbedici nə ola bilər? Bu suala bir qədər sonra cavab verəcəyik.




İndi isə Stavroginin həyatından bir neçə epizod: o, bir dəfə hətta oğurluq da edir. Qonşu məmurun cibindən pulunu çıxarır. Oğurluq pul xatirinə edilməmişdi. Oğurluq məqamında keçirilən duyğunun xatirinə edilmişdi. Bu duyğu isə öz hərəkətinin alçaqlığını dərk edərək, daxili ittiham və gizli işgəncədir.

Bir başqa dəfə Stavrogin öz mənzilində onu sevən ərli bir xanıma və onun qulluqçusuna eyni vaxtda görüş təyin edir və onları görüşdürməkdən həzz alacağını düşünür. O, sadəcə olaraq özünü bu eybəcər hərəkətlərlə əyləndirir. Üçüncü bir hadisədə o, iki nəfəri duelə çağırır, onlardan birini öldürür, digərini şikəst edir. Bu kəskin, eybəcər, cinayətkar hərəkətlər onun nəyinə gərəkdir?

Məsələ burasındadır ki, Stavroginin ruhu sanki atrofiya vəziyyətindədir, oyaq olan təkcə onun təfəkkürüdür. Təfəkkür isə ona həyat duyğusunu bəxş edə bilmir. Həyat duyğusundan məhrum olmuş bu iblis süni surətdə, cürbəcür eybəcər hərəkətlərlə sanki özünün yatmış ruhunu oyatmaq, donmuş duyğularını hərəkətə gətirmək istəyir. Yəni həyat duyğusu deyilən nemət ona yalnız və yalnız eybəcər şəkildə, eybəcərliklər vasitəsilə çatır. Ona görə də Stavrogin bu eybəcərlikləri sevir, çünki onlar eybəcərlik də olsa, həyatdır, mücərrəd ideallar deyildir. Bu da romantikin həyata, real gerçəkliyə qayıdışıdır. Bütün bu mənəvi, ruhi bəlaların səbəbi isə Stavroginin bir şəxsiyyət olaraq real zəmindən, milli ruhdan ayrı düşməsindədir. Bu ayrılıq çoxdan, hələ Birinci Pyotrun vaxtından, onun rus zadəganını rus boyarı kimi deyil, fransız markizi kimi görmək istəməsindən və rus dvoryanının Avropa həyat tərzinə aludə olmasından başlanmışdı. Rus zadəganını avropalı kimi görmək istəyən çar Pyotr nəhayət ki yüz əlli ildən sonra öz məqsədinə çatmışdı. Amma artıq Avropada avropalı, Rusiyada rus ola bilməyən bu əcaib məxluq həyatda özünə yer tapa bilmir, zəminsiz, köksüz-köməcsiz, quru bir varlığa çevrilir. Odur ki, onun əlindən yalnız cinayətlər və eybəcər hərəkətlər gəlir.

Stavroginin biganəliyi və məqsədsiz, səadətsiz, sevincsiz, deyərdim ki, sadəcə olaraq mövcud olması onu intihara sövq edir. O, bir neçə dəfə özünü öldürmək qərarına gəlir. Bu intihar məhz Stavroginin etinasızlığından, həyata qarşı, öz mövcudluğuna qarşı olan ikrah hissindən yaranır. Amma o, özünü öldürə də bilmir, çünki intiharda da özünün layiq olmadığı bir rəşadət görür.

Bu arada o, Marya Lebyadkina ilə tanış olur. Bu, ruhi xəstə, çolaq, divanə bir qız idi. Onu heç kəs qadın hesab etmirdi. Məhz bu divanə, Stavroginə vurulur. Lebyadkina və




Stavrogin iki əks qütblərdir: gözəl zadəgan və eybəcər dilənçi. Bunları nə birləşdirə bilərdi? Birdən Stavrogin bu urvatsız qızla evlənmək qərarına gəlir və onunla gizli nikah kəsdirir. Stavrogin özünün bu hərəkətinə məhz özündən intiqam almaq üçün intihardan da betər bir hərəkət kimi baxır. Stavroginlə Marya Lebyadkinanın nikahı sanki ən ali varlıqla ən miskin bir varlığın, mələklə insanın nikahı kimi bir şeydir. Amma bu mələk artıq iblisdir, bu insan isə, divanə də olsa, müqəddəsdir. Marya Lebyadkina sanki yerdə, real həyatda, real insan kimi yaşamır. Onun öz dünyası var. Bu, mifoloji bir dünyadır. Marya monastırda yaşamış olsa da, dindar deyil, o, bütpərəstdir, mifoloji dünyanın sakinidir. O, bu dünyada özünün knyazını, öz şahzadəsini, yəni Stavrogini gözləyir. Stavrogin də bu real dünyadan ayrıdır. Lakin Marya Lebyadkinadan fərqli olaraq o, insanlıq, həyat deyilən səviyyədən çox-çox aşağılara enmişdir. O da divanədir. Lakin onun gözünə gözəl röyalar, ecazkar nağıllar deyil, şeytan görünür və bu şeytan həm özgədir, yaddır, nifrindir, həm də bu şeytan onun, yəni Stavroginin özüdür.

Stavroginin iblisliyi, onun həyata, insana, Allaha qarşı biganəliyi o həddə çatır ki, o, azyaşlı qız uşağı Matryoşaya təcavüz edir. Sonra da qızın ümidsizlik içində gedib özünü asmasını soyuqqanlılıqla gözləyir. Matryoşa onun yanında, az qala onun gözlərinin qabağında intihar edir. O isə oturduğu yerdən belə durmur. Onun dəmir iradəsi, eyni zamanda ölü iradəsi və ölü ruhu bu səhnəyə dözür. Təxminən məsələnin bitməsini yəqin edəndən sonra Stavrogin durub gedir və getməzdən qabaq qapının deşiyindən baxıb görmək istədiyi səhnəni görür.

Stavrogin doğrudanmı artıq ölü ruhlu bir iblisdir, yoxsa onda insanlıq deyilən o ruhi həyatdan nəsə qalmışdır? Dostoyevski heç vaxt insanın ölü cana çevrilməsinə inanmamış, daim insanda, ən müdhiş cinayətkarda belə, ruhun və mənəviyyatın işartılarının qaldığına inanmışdır. Stavrogində də bu həyat cövhəri, bu dirilmə ehtimalı və ümidi qalmaqdadır. Matryoşanın əhvalatı onun ruhunu sarsıtmış, varlığını silkələmiş və qəlbininənginliklərində qalmış həyat işartısını, vicdan deyilən ruhi diriliyi oyatmışdır. Bunun da nəticəsi olaraq iblis Stavrogin ən uca bir insani yuxu görmüşdür. Yuxu isə, əlbəttə, təhtəlşüurda uyumaqda olan arxetipdir. Yəni ilkin insani varlıqdır, əcdadların öz ürəklərində daşıdıqları duyğular, öz şüurlarında yaşatdıqları təsəvvürlərdir. Bu arxetiplər hər bir kəsin ruhunun dərinliyində mövcuddur və yeri gələndə oyanır və özünü büruzə verir. Stavrogində bu arxetip özünü yunan arxipelaqının sakinlərinin görüntüsündə, o əzəli və saf insanların “qızıl əsr” adlanan həyat tərzində özünü büruzə verir. Stavrogin kimi eybəcərliklər içində batıb qalmış bir kəsin yuxuda bu ali və saf gözəlliyi görməsi həm təəccüblüdür, həm də təskinlik vericidir.

Matryoşanın xəyalı Stavrogini izləyir, ondan əl çəkmir, artıq onun ruhunu yatmağa qoymur. Və Stavrogin etiraf etmək qərarına gəlir. O, özünün “Açıq etiraf”ını yazır. Onu tipoqrafiya üsulu ilə çap etdirir və yaymaq istəyir. Yəni Stavrogin tövbə yoluna qədəm qoyur. Bu çox böyük rəşadət tələb edən bir yoldur. Hər adam bu yola dözə bilmir. Bu yolda ən çətini, ən əzablısı odur ki, insan, cinayətkar da olsa, özündən çox-çox əskik hesab etdiyi, sevmədiyi, hətta nifrət etdiyi məxluqlar qarşısında tövbə etməli, onlardan üzr istəməlidir. Yadımıza salaq ki, Raskolnikov da bunu edə bilməmişdi. Stavroginin qarşısında duran ən çətin maneə də elə budur - nifrət etdiyi insanlardan, buna layiq olmayan insanlardan üzr istəmək, onların qarşısında günahını etiraf edərək, özünün bağışlanılmasını diləmək. Stavroginin “Açıq etiraf”ını oxuyan Tixon ata onun üslubundan çıxış edərək deyir ki, o, bu etirafı etməzdən əvvəl bir daha da əvvəlkilərdən də ağır bir cinayət törədəcək. Yəni Stavroginin cinayətlərindən də ağır cinayət ola bilərmi? Belə bir ağır cinayət varmış. Bu da intihar cinayətidir. Stavrogin öz həyatına intihar vasitəsilə son qoyur. Son qoyur ona görə yox ki, onun mənəvi dirilməsi mümkün olmur, ona görə ki, o, artıq xətti keçmişdi. Yəni insanı iblisdən ayıran xətti keçmişdi və Stavroginin qəlbindəki o oxşar, o iblis onun təhtəlşüurundakı o əzəli insana qalib gəlmişdi. İnsan iblisin qurbanı olmuşdu, oxşar insanı məhv etmişdi. Bu, çox böyük faciədir, faciələrin faciəsidir, insanın özünə asi kəsilməsidir. Bütün bunların da səbəbi şəxsiyyətin milli zəmindən, mənəvi köklərdən ayrı düşməsində, zəminsiz, havadan asılı vəziyyətdə qalmasındadır. Milli-mənəvi zəminsiz heç bir qüdrətli şəxsiyyət öz insani imkanlarını həyata keçirə bilməz. Stavroginin, bu paradoksal şəxsiyyətin başına gələnlərdən hasil olan nəticə bundan ibarətdir.

(Ardı var)